



# Rasim Balayev yeni kino ittifaqının sədri seçildi

## "Azərbaycan kinosunun dirilmə imkanı var. Yiyəsi olsa, onu yaxşı həkimlərə aparacaq"

**Azərbaycanın iki kino ittifaqı birləşib, yeni təşkilatın adı Azərbaycan Kinematoqrafçılar İttifaqı olub. Xalq artisti Şəfiqə Məmmədova İttifaqın sədrliyinə namizədliyini geri götürüb, Xalq artisti Rasim Balayev isə sədr seçilib.**

Bu barədə Teatr Xadimləri İttifaqının "Aktyor Evi"ndə baş tutan Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) və Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının (ARKİ) birləşməsilə bağlı keçirilən konfransda yekdilliklə qərar qəbul olunub. Səsvermə ilə yeni təşkilatın Nizamnaməsi təsdiq edilib.

Azərbaycan Kinematoqrafçılar İttifaqına sədr seçilən Rasim Balayev çıxışında Şəfiqə Məmmədovanın namizədliyini geri götürəcəyini gözləmədiyini deyib və ona etimad göstərənlərə təşəkkürünü bildirib. Xalq artisti Rasim Balayev Xalq artisti Şəfiqə Məmmədovanın yeni yaranmış İttifaqının İdarə Heyətinə qəbul olmasını təklif edib.

### "Bu yaşlı vaxtımda da kinoya çəkilmək istəyirəm"

Bunu da kinonun hazırkı vəziyyətindən danışan R.Balayev deyib:

"Əmin olmaq istəyirəm ki, kinomuz inkişaf edir. Kino ilə birliyimizi yaşatmalıyıq. Ömrümüzü kinoya qurban vermişik. Hər bir insanın arxasında duracağıq. Hamıya yiyə duracağıq. Kino çəkmək səlahiyyətimiz yoxdur. Buna baxmayaraq, iki il ərzində sənədli film çəkmişik. Daxilən inanıram ki, kinomuz diriləcək. Bu yaşlı vaxtımda da kinoya çəkilmək istəyirəm. Bizim amalımız kinodur. İndi ayağımda problem var. Bu yolda sağlamlığımızı vermişik. Əvvəl restoranda çox olurdum, indi aptekdə çox oluram. Orada da mənə deyirlər ki, nə oldu bu kino? Mənəvi əzab çəkirəm. Bu gün Azərbaycan kinosunun dirilmə imkanı var. Yiyəsi olsa, onu yaxşı həkimlərə aparacaq".

Qeyd edək ki, yalnız rejissor Oqtay Mirqasımov birləşmənin əleyhinə səs verib. "Birləşmə dağıdıcı proses ola bilər. Səbəb sadədir. Səsvermə bərabər deyil. Yuxarı orqanlara müraciət etmişik. Bu, çox şübhəli məsələdir".

Bundan sonra kinorejissor konfrans zalını tərk edib.

Oqtay Mirqasımovun konfransı tərk etməsi ilə reaksiya verən Rasim Balayev deyib ki, yeganə amalımız Azərbaycan kinosunun inkişafıdır. Bu məsələləri həll edəcəyik.

Xalq artisti Şəfiqə Məmmədova isə kino ittifaqlarının birləşməsində böyük rolu olduğunu deyib. "Mən bu gün kino ittifaqlarının bir yerdə olmağına şadam. Bu mənim arzum idi. Yaxşı ki, bu arzum həyata keçdi. Bu məsələdə mənim rolum danılmazdır. Bu gün konfransın gedişatı, iştirakçıların fəallığı çox gözəldir. Mən namizədliyimi irəli sürdüyü üçün rəhbərlik etdiyim ittifaqa minnətdaram. Amma qərarımı açıqlamaq istəyirəm. Bu gün konfransda sədrliyə namizəd kimi iştirak etmək istəmirəm".

### "Azərbaycanfilm"i itirmək təhlükəsindəyik"

Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) katibi, rejissor Əli İsa Cabbarov isə konfransdakı çıxışında "Azərbaycanfilm"i itirmək təhlükəsinin olduğunu deyib: "Azərbaycanfilm"i xilas etməliyik. Biz gecikirik. Təcili tədbirlər görməliyik. Biz istehsalata baxmalıyıq. "Azərbaycanfilm"i itirmək təhlükəsindəyik. 2 ildir ki, istehsalat yox səviyyəsindədir. Bugünkü iclasın gündəliyi təşkilat komitəsi tərəfindən müzakirə olunub". AKİnin katibi bu gün qələbə günü olduğunu bildirib: "Kino Agentliyinin köməyə ehtiyacı var. İttifaqlar birləşib ona dəstək olmalıdır. Kinomuzun problemləri çoxdur. Onu həll etməliyik. Bir olmalıyıq ki, uğurlu işlərə yol alaq. Birləşib mehribanlaşmalıyıq. Hər birimiz birliyə qucaq açırıq. Bir hədəfimiz var - kinomuzun birliyi və qələbəsidir. Xain əllər sındırılmalı, xain gözlər çıxarılmalıdır. Heç kim müdaxilə etməməlidir".

### "Birləşmə təklifini ilk dəfə mən irəli sürmüşdüm"

Bunu isə Xalq artisti, tanınmış rejissor Əbdül Mahmudov deyib. O, irəli sürdüyü təklifin gerçəkləşdiyini qeyd edib: "Şükürlər olsun ki, ittifaqlar birləşirlər. Təklifimi gerçəkləşdirdikləri üçün təşəkkürümü bildirirəm. Birləşəndən sonra kinonun inkişafına köklənməliyik".

Kinorejissor Cəmil Quliyev isə hesab edir ki, meyarlar yüksək qoyulmalıdır ki, hər adam İttifaqa üzv olmasın. Onun sözlərinə görə, ən azı 5 il kino fəaliyyəti olan şəxs İttifaqa üzv olmalıdır.

### "Yaradıcı insan şəxsiyyətdir, o, heç kimlə birləşə bilməz"

Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) keçmiş katibi, Əməkdar incəsənət xadimi, rejissor Ayaz Salayev isə Yeniçağ.az-a açıqlamasında Azərbaycan kino ictimaiyyətinin bərbad vəziyyətdə olduğunu deyib.

Yaradıcı şəxs üçün birləşmənin uyğun olmadığını vurğulayan rejissor bildirib: "Əslində, birlik olmamalıdır, çünki yaradıcı insan şəxsiyyətdir, o heç kimlə birləşə bilməz. Əvvəlcədən də demişdim ki, əgər birləşmə olarsa, mən təşkilatda qalmayacağam. Sözüm sözdür. Çox vacib səbəb ola bilər ki, mən orada qalım. Amma belə bir səbəb də yoxdur".

Xalq artisti Rasim Balayevin yeni yaradılan Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri seçilməsi xəbərinə isə rejissorun reaksiyası belə olub: "Mənim he bir reaksıyam və sözüm yoxdur. Mən o konfransa qatılmamışam da".

*Qeyd edək ki, AKİ və ARKİ-nin birləşməsi məsələsi ötən il gündəmə gəlib. 2023-cü il iyulun 26-da iki qurumun idarə heyətlərinin birgə iclası keçirilib və birləşmə haqqında birgə bəyanat qəbul edilib.*

*AKİ 1963-cü ildən fəaliyyət göstərir, İdarə Heyətinin sədri Xalq artisti Rasim Balayevdir. ARKİ isə 2012-ci ildə yaradılıb və İdarə Heyətinin sədri Xalq artisti Şəfiqə Məmmədova olub.*

**Şeymən**